# Səyyar qəbullar


Topbağ kəndi.




Böyük Pirəli kəndi.




Kötüklü kəndi.


Böyük Əmili kəndi.

Yaşadığımız zaman çərçivəsində insanların yaşayış tərzi, həyat səviyyəsi həmişə reqlament şəklində davam edə bilmir. Onların çox zaman qarşılaşdığı çətinliklər günümüzün probleminə çevrilir.

Məhz buna görə də Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev rayonumuzun qəsəbə və kəndlərində əhali ilə görüşlər keçirir və onların qarşılaşdığı problemlərin həll olunmasını diqqət mərkəzində saxlayır.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Avqust ayında rayonumuzun Topbağ, Böyük Pirəlli, Böyük Əmili və Kötüklü kəndlərində səyyar qəbullar keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılır. Səyyar qəbullar zamanı kənd sakinləri tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirirlər.

# Şəhid ailəsi evlərində ziyarət edildi



Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev və hüquq-mühafizə orqanlarının rəhbərləri Vətən müharibəsində şəhid olmuş Baxışov Hakim Səyyar oğlunun ailəsini evində ziyarət etmiş və problemləri ilə maraqlanmışlar. Görüş zamanı şəhidin ailə üzvləri dövlət tərəfindən onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# Vətən müharibəsi şəhidlərinin valideyinləri ilə növbəti görüş keçirilmişdir



Qəbələ Rayon İcra Hakimiyyətinin Başçısı Səbuhi Abdullayev bir qrup Vətən müharibəsi şəhidlərinin valideyinləri ilə görüş keçirmişdir. Görüşdə şəhid valideynləri dinlənilmiş, onların qaldırdıqları məsələlər müzakirə edilmiş, həlli istiqamətində müvafiq tədbirlər görülmüşdür. Görüşdə iştirak edən şəhid valideynləri onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# Qızıl və gümüş nişanlı abituriyentlər



Qəbələ Rayon İcra Hakimiyyətində 2021-2022-ci tədris ilində orta təhsili qızıl və gümüş nişanla bitirmiş və ali məktəblərə keçirilən imtahanlarda yüksək nəticə əldə etmiş məzunlarla görüş keçirilmişdir. Tədbir iştirakçıları öncə ümummilli lider Heydər Əliyevin abidəsini və torpaqlarımızın azadlığı uğrunda şəhadətə yüksəlmiş şəhidlərin xatirəsinə ucaldılmış Şəhidlər Xiyabanı kompleksini ziyarət etmiş, xatirələrini ehtiramla yad edərək önünə gül dəstələri düzmüşlər. Sonra Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev ali məktəblərə qəbul olunmuş gəncləri təbrik edərək, onlara təhsildə və gələcək həyatlarında müvəffəqiyyət arzulamış, bildirmişdir ki, ölkəmizin sürətli inkişafında yeni zirvələrin fəth edilməsi yüksək intelektli, bacarıqlı kadrlardan asılıdır. Ona görə də ali məktəblərə qəbul olunmuş gənclər biliklərə daha səylə yiyələnməli, öz ixtisaslarının əsl bilicisi olmalıdırlar. RİH başçısı qeyd etmişdir ki, ölkə Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində respublikamızda, o cümlədən rayonumuzda təhsilin ən müasir səviyyəyə qaldırılması üçün hər cür şərait yaradılmışdır və proses ardıcıl olaraq davam edir. Sonda orta təhsili qızıl və gümüş nişanla bitirdiklərinə və təhsil müəssisələrində keçirilən qəbul imtahanlarında yüksək nəticə əldə etdiklərinə görə məzunlara rayon icra hakimiyyətinin fəxri fərmanları təqdim edilmişdir.